# “Azərbaycan Xalq Cümhuriyyəti Şərqin ilk demokratik dövlətidir”

***Nizami rayon icra hakimiyyətinin və Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının birgə təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyi münasibətilə “Azərbaycan Xalq Cümhuriyyəti Şərqin ilk demokratik dövlətidir” mövzusunda tədbir keçirilib.***

Tədbir iştirakçıları ilk öncə Ulu Öndər Heydər Əliyevin, Azərbaycan Xalq Cümhuriyyətinin, müasir Azərbaycan Respublikasının müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş qəhrəman Vətən övladlarının unudulmaz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Sonra Azərbaycan Respublikasının dövlət himni səsləndirilib və Cümhuriyyət tarixindən bəhs edən film nümayiş etdirilib.

Filmin nümayişindən sonra çıxış edən YAP Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva bildirib ki, 1918-ci il mayın 28-də yaradılan, müsəlman dünyasının ilk parlamentli respublikası kimi dünyanın demokratik dövlətləri tərəfindən tanınan Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın tarixində silinməz izlər buraxıb: “Müasir müstəqil Azərbaycan bu Cümhuriyyətin siyasi varisidir. Azərbaycan Xalq






Cümhuriyyətinin 100 illiyinin ölkəmizdə qeyd olunması azərbaycançılıq təfəkkürünün möhkəmlənməsinə və zənginləşməsinə, həmçinin, gələcək nəsillərin müstəqil dövlətçilik ideyaları əsasında tərbiyə olunmasına xidmət edir.”

Milli Məclisin deputatı Dilarə Cəbrayılova çıxışında bildirib ki, 1918-ci il mayın 28-də Azərbaycanın müstəqilliyinin elan olunduğu İstiqlal Bəyannaməsinin qəbulundan sonra Cümhuriyyətin ilk parlamenti seçilib, ölkənin sərhədləri müəyyənləşdirilib, bayrağı, himni və gerbi təsdiqlə-




nib, ana dili dövlət dili elan edilib: “Həmçinin, dövlət quruculuğu sahəsində əhəmiyyətli işlər görülüb, ölkənin ərazi bütövlüyünün və milli təhlükəsizliyinin təmin edilməsi üçün mühüm tədbirlər həyata keçirilib.”

Neft Kəmərləri İdarəsinin rəisi Vasif Əmirov çıxışında cəmi 23 ay yaşamış Azərbaycan Xalq Cümhuriyyətinin zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tariximizdə silinməz izlər qoyduğunu diqqətə çatdırıb.

Tədbirdə çıxış edən Nizami rayon icra hakimiyyətinin başçısı Arif Qasımov müasir Azərbaycanın dövlətinin Banisi Ümummilli Lider Heydər Əliyevin dühası, dərin zəkası, qətiyyəti və əvəzsiz xidmətləri nəticəsində respublikamızın müstəqilliyinin daimi və dönməzliyinə nail olduğunu, beynəlxalq hüququn bərabərhüquqlu subyekti kimi dünyada özünün layiqli yerini tutduğunu və üçrəngli bayrağımızın əbədi olaraq yüksəklərə ucaldığını bildirib.

Tədbirdə digər çıxışçılar da vurğulayıblar ki, Azərbaycan Xalq Cümhuriyyətinin varisi və regionun lideri olan müstəqil Azərbaycan Ümummilli Liderimizin siyasi xəttinin layiqli davamçısı Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə bu gün bütün sahələrdə xariqələr yaradır, yeni tərəqqi zirvələrini inamla fəth edir. Doğma Vətənimiz yeniləşmə və müasirləşmə mərhələsində günbəgün inkişaf edərək, daha da qüdrətlənir.

Tədbirin sonunda YAP Nizami rayon təşkilatının ictimai-siyasi həyatında fəal iştirakına görə bir qrup fəal diplom və fəxri fərmanlarla təltif ediliblər, YAP-a yeni üzv qəbul edilmiş şəxslərə vəsiqələr verilib. Yunan-Roma güləşi üzrə Avropa çempionatının qızıl medalçısı Eldəniz Əzizliyə və ikinci yerin qalibi Rasul Çunayevə, eləcə də, bu il keçirilmiş qəbul imtahanlarında 700 bal toplamış Leyli Əhmədovaya hədiyyələr təqdim edilib.

***Nəzakət ƏLƏDDİNQIZI***